# HÜSEYN CAVİDİN ŞEİRLƏRİNDƏ BİRİNCİ DÜNYA MÜHARİBƏSİ MÖVZUSU



*İslam QƏRİBLİ,*
*filologiya elmləri doktoru, professor*

XX əsrin əvvəllərində öz ictimai təbiətinə görə təcavüzkar siyasət yeridən bir çox inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərin siyasi aləmdəki rəqabətinin qanunauyğun nəticəsi kimi meydana çıxan, dünya dövlətlərinin otuz üçünün iştirak etdiyi Birinci Dünya müharibəsi özünəqədərki savaşların ən qorxulusu və ən dəhşətlisi idi. İyirmi milyondan artıq insan övladının puç olmuş taleyi bahasına başa gəlmiş bu qanlı hərb bəşəriyyətin əsrlərdən bəri yaratdığı maddi-mədəniyyət abidələrini məhv etməklə yanaşı, mənəvi dəyərlərə də sarsıdıcı zərbələr vurdu. Dağıdılan xanimanlar, axıdılan qanlar ürəyi bəşər övladı üçün məhəbbət və mərhəmətlə döyünən qələm sahiblərini mənəvi müvazinətdən çıxıncaya qədər əsəbiləşdirdi ki, bu sarsıntıların təzahürü kimi mütərəqqi dünya, o cümlədən Azərbaycan ədəbiyyatında çoxlu əsərlər yarandı. Dünyamızın indiki narahat çağında bu cür əsərlərin öyrənilib təhlil və təbliğ edilməsi həm tarixilik, həm də müasirlik baxımından zəruridir.

Araşdırmalar göstərir ki, Birinci Dünya müharibəsi dövründəki Azərbaycan ədəbiyyatı tək-tük nümunələri çıxmaq şərti ilə, demək olar ki, anti-müharibə mahiyyətli ədəbiyyat idi. Mütərəqqi Azərbaycan yazıçılarının heç biri savaşın tərəfdarı olmamış, ya tamamilə susmuş, ya da bu sərsəm, qanlı qırğının əleyhdarı kimi çıxış etmişdilər. Müharibəyə münasibəti yaradıcılıq tipləri ilə bağlamaq düzgün olmasa da, hər halda, müharibə əleyhinə mübarizədə romantik ədəbiyyat daha fəal idi.

Azərbaycan romantikləri müharibəni bəşəriyyətin məhvinə doğru atılmış sərsəm bir addım kimi qəbul edir, eyni zamanda onu insanları mənəvi cəhətdən şikəst edən bir kabus kimi lənətləyir, hərb səhnələrinin təsvirindən çox, hərbin mənəviyyatda əmələ gətirdiyi böhranların ifşası ilə məşğul olurdular. Belə bir üsul M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət yaradıcılığı üçün xüsusi ilə səciyyəvi idi və onların romantik qəhrəmanlarını ədalətsiz cəmiyyəti dağıtmağa hazır olan üsyankar bir ruh birləşdirirdi. Müharibəyəqədərki yaradıcılıqlarında ümumi məhəbbət ideyasının təbliği yolu ilə millətlər, xalqlar arasında ictimai bərabərliyin mümkün olacağına ümid bəsləyən romantik sənətkarlarımız hərbin acı-ağrılarını, insanların qardaş olmalı ikən yadlaşdığını görəndə belə bir nəticəyə gəldilər ki:

Cahan əhli uzaqlaşmış ümumi bir üxüvvətdən!

Ümumi məhəbbətin ürəklərdən perik düşməsi, bunun nəticəsində insanların rəyasət qazanmaqdan ötrü qana susaması, ölənin də, öldürənin bəşər övladı olması sənətkarlarımızı belə bir fikrə gətirmişdi ki, onlar xislətində şərə aludəçilik olan bəşəri şər, bir qədər də tündləşdirərək iblis sifətində görmüş, ürəklərinin hiss və həyacanlarını həməsrlərinə bəyan etməklə bu sərsəm bəladən xilas olmaq üçün həm onlardan imdad diləmiş, həm də onlara yol göstərmişdilər. Bu cür çağırışlar romantiklərimizin hamısında, xüsusilə Hüseyn Caviddə daha güclü idi və şair başlıca nicat yolunu birlik və ittihadda görürdü. Müharibənin birinci ilində, 1914-cü ilin dekabrında, Naxçıvanda ikən yazdığı "Məzlumlar üçün" şerində mütəfəkkir şairin həməsrinə:

O çırpınan, əzilən, qəhr olub gedən füqəra
Deyilmi? Yoxsa o sizdən deyilmidir, əcəba?
O titrəşib-mələşən yavrular neçin çabalar?
Neçin yanar əli qoynunda müztərib analar?-(s.92)

suallarını verməsi təsadüfi deyildi.

Qeyd:Sitatlar "Hüseyn Cavid. Əsərləri. Birinci cild" kitabındandır. Bakı: "Yazıçı", 1982

Naxçıvanda, müharibə meydanlarından uzaqlarda yazdığı bu əsərində o, yana-yana qeyd edir ki, yenicə başlanmış bu qorxulu - top, təyyarə, bomba hərbinin qarşısı vaxtında alınmazsa, bütün ərzi zəlalət bürüyəcək, zəhmət və gözəl arzularla abad olan dünya evi xarabazara, toy otaqları yasxanaya dönəcək. Elə bir vəziyyət əmələ gələcək ki, öləndən sonra "parə-parə cəsədlər məsud" olub ehtiyacın nə olduğunu bilməyəcək, ölümün pəncəsindən qurtulanlar isə səfil-sərgərdan halına düşəcək və bu zaman məzlumların imdadına nə İncil həqiqəti, nə də Quran hökmü yetəcək.

Bir qədər sonra H.Cavid elan edir ki, Şərqlə Qərbi bürüyən, hər dəqiqəsində min qurban verilən və küllialəmi bərbad edən bu müharibənin törənməsində bir qanunauyğunluq var. Çünki nə qədər ki, gücsüz güclü qarşısında günahkar sayılır və nə qədər ki, zoruna arxayın olan həqiqəti tapdalayıb qalib ədası ilə haqq sahibi kimi tanınır, müharibə yox, hətta qiyamət gününün bərpa olunması da təbiidir. Hisslərini cilovlamaqda çətinlik çəkən şair məzlumların əhvalını çobansız qoyunların halı ilə müqayisə edir və deyir:

Ah əvət, həp dəyişdi ruhi-bəşər,
Hökm edəb imdi başqa fəlsəfələr.
Haqq, ədalət, təbiət iştə bu gün,
Əbədi məzlumə qarşı çox küskün..
Yaşadan kainatı qüvvətdir,
Gücsüzün həp nəsibi zillətdir.
Əvət acizlərin cəzası budur,
Kim ki, məzlum olursa, zalim odur! (s.93).

Cavid fəlsəfəsində məzlumluq zalımlıqdır və bu, məzlumun hüququnu dərk edib haqqını tələb edə bilməməsi kimi başa düşülməlidir. Məzlumluqdan qurtarıb zalım qiyafəsində görünməmək üçün şair oxucusuna aşağıdakıları tövsiyə edir:

Kim ki, biganədir hüquqa, əvət,
Xain əllərdə məhv olur, əlbət.
İştə qarşındadır misalı bu gün,
Səndə göz varsa seyr edib də düşün!
Bisəbəb qəhr olan zavallıların,
Sənə şamil deyilmi halı yarın?
Yaşamaq istərsən çalış, çabala,
Rəd olub gurla, bərq olub parla!
Yoxsa fərjadü nalə zaiddir,
Bir həqiqət bu: "əzməyən əzilir!.." (s.93)

H.Cavidin "Qəhr edən, qəhr olan, əzib-əzilən, Düşünün bir neçin, neçin əcəba!" - deyərək fəryad qoparan romantik qəhrəmanlarının səsi "Dün və bu gün" (1915), "Qüruba qarşı" (1915), "Hərb və fəlakət" (1916), "Hərbi-ilahi qarşısında" (1917) şeirlərində bir qədər də gürlaşır və artıq bu səsdə aşkar bir kədər də duyulur. Bu kədər şəxsi kədər deyil, ictimai kədərdir və H.Cavidin romantik qəhrəmanı - lirik "məni" dünyaya ağlar gözlə yox, dünya hadisələrindən baş çıxarmağa can atan zəkalı bir şəxs - mütəfəkkir kimi baxır. Müharibənin mənasızlığını, bu savaşın təkcə bir və ya bir neçə ölkəyə deyil, bütün bəşəriyyətə fəlakət gətirəcəyini elan edən şair bildirir ki, bu oyunda məğlubun itirdiyi qədər də qalib itirir.

H.Cavid 1915-ci ildə yazdığı "Dün və bu gün"-şerində belə bir həqiqəti bir daha təsdiq edir ki, dünyada ədəbi olan heç bir şey yoxdur, hər şey dəyişmədə, artmaqda və azalmaqdadır. Elə buna görə də əski düşmənlərin dostlaşması, məhkumların hakim mövqeyinə qalxması təbiidir. Əgər dünənki məsud bu gün bədbəxtdirsə, yaxud dünənki viranə bu gün abadsa və ya əksinə, heyrətlənməyə dəyməz. Çünki inqilablara məruz qalıb sarsılmayan bir qanun yoxdur və dünyadaki hadisələr o qədər sürətlə cərayən edir ki, dünənki hadisə bu gün artıq köhnə hesab olunur və beləliklə:

Yox təbiətdə öylə bir qüvvət,
Əbədi, həm də paydar olsun.
Həp dəyişməkdədir bütün xilqət,
Həm dəyişməkdədir həyatü fünun.
Olmayan varmı inqilabə zəbun?
Varmı sarsılmaz öylə bir qanun?!
Seyr edin iştə kainatı bu gün,
Devrilir hər addımda bir əzəmət.
Dinləməz dünki hadisatı bu gün,
Parlayır hər dəqiqə bir hikmət.
Hər qaranlıqda çırpınır bir nur,
Hər həqiqətdə bir xəyal uyuyur.(s.97)

Tarixin belə dəyişkən zamanında "cahanın qətlgəh olması, insanların qana susaması" şairi bərk narahat edir və o, bu narahatlığını 1915-ci ildə Tiflisdə, Qocurda yazdığı "Qüruba qarşı" şerində çox böyük həyacan və ustalıqla qələmə alır.

Dünyanı bürümüş hərbculuq siyasətinin ölçüyəgəlməz fəlakətləri şairdə elə bir hal əmələ gətirib ki, bunun nəticəsində onun qəlbi yox, hətta ruhu da yaralıdır və yaralı ruh havanı, günəşi, səmanı məhzun kimi görürkən, dünya şairin qarşısında sisli bir çarşab kimi canlanır. Şair düşünür ki, heç olmasa, bircə anlıq da olsa həqiqət günəşinin doğmamasının səbəbi, görəsən, nədir? Səbəb nədir ki, bütün aləm cansıxıcı, bütün cahan məlallı və hüzünlüdür?

Günəş, əngin, nəhayətsiz fəzanın nazlı sultanı,
Neçin? Bilməm neçin çıxmaz o xəlvətgahi-ismətdən?
Neçin afaqı sarmaz şöleyi-hüsni-zərəfşanı?
Neçin məhrum edər hissü xəyalı feyzi-söhbətdən?
(s.98)

Bu suallara cavab axtararkən H.Cavid çox romantik və ibrətamiz bir səhnə yaradır. Nagahan buludların arasından üzü qəhərdən qızarmış qanlı bir sima - Günəş görünür. Qanlı baxışları dəhşətləri bəyan edən Günəşin nəzərlərindən min məna, min əsrar oxunur. Bir canlı kimi şairin gözləri qarşısında yüksələn Günəş azalmaqdansa artan, dəmbədəm fışqıran atəşli, zəhərli hərbdən macəralar söyləyir. Bu gülgün çöhrə insanların qan aşiqi olmasını izhar edəndən sonra, sanki insanların əvəzində utanaraq buludların arasında qeyb olur. Şair Günəşin ittihamına haqq qazandırır, iyirminci yüzilliyin adamlarını həm cahil, həm də alim qütblərinə bölməklə belə bir fikir irəli sürür ki, mələklərin, yəni aqillərin nəsihətini saya salmayan, şeytanın, yəni cahilin fitvasına uyan insan həm özünə, həm də həmcinsinə düşməndir. Fikirlərini bir qədər də inkişaf etdirən şair belə bir qənayətə gəlir ki, zülm və vəhşətdən aman olmayan aləmdə şərə uymuş insanın məzhəbindən kimsə qurtula bilməz və belə olan sürətdə bəşərin tarixində "bir böylə hüznavar, ələmpərvər bahar olmaz".

Hələ bu harasıdır?

"Dənizlər qan, buludlar qan, hava qan, iştə hər yan qan!". Bu qədər qan-qadanın törənməsinə səbəb nədir? Qoyduğu suala şair belə bir cavab verir:

Böyük başlar dumanlanmış da atəş püskürür hər yan!
Qılınclar, süngülər, toplar, tüfənglər gurlayıb parlar.
Nə istər bir-birindən anlaşılmaz saygısız insan?
Olur məmurələr viran, qopar atəşli tufanlar.
Fəqət bunlar, bu vəhşətlər, bu dəhşətlər neçin bilməm?
Əcəb, xalimi insafü mürüvvətdən bütün aləm!?
Bu qəsvətlər neçin bilməm? "Neçin?
Ya Rəb, neçin?" derkən,
Qopub bir seyhə, müdhiş bir səda, bir nərəyi-hey-hey!
Həmən sarsıldı ruhum, tüklərim ürpərdi dəhşətdən;
Dəmadəm yıldırım, şimşək çaxar, patlardı peydərpey,
Bu qızğın seyhə, guya gurlayıb söylərdi: - Ey qafil!
Fəlakətsiz səadət, qayğısız rahət deyil qabil. (s.99)

Məmurələrini viran edib vəhşət və dəhşətlər törədən saygısız insanların aqibəti barədə fikirləşən, "bütün aləm insaf və mürüvvətdən xalimi?" - sualı ətrafında düşünən şairi qəfil bir nərə fikirindən ayırır. Bir qədər əvvəl Günəş insan tarixinin qanla yazılmış bir kitab olduğunu söyləyirdisə, indi peydərpey çaxan şimşəklər insan kimi şairin gözləri qarşısında canlanır, onunla həmsöhbət olur və bildirir ki, qafil, fəlakətsiz səadət, qayğısız rahatlıq ola bilməz! Əmin ol, harada ki, dirilik var, orada mütləq qovğa olmalıdır. Bu bir hikmətli qanun və sirri - xilqətdir ki, məhv olmaqdansa, daima artar:

Bu bir baziçeyi - qüdrət ki, bundan kimsə qurtulmaz.
(s.99)

Şerin ümumi ruhu nə qədər qəmli və ələmli olsa da, sonluqda gələcəyəümidlərlə baxan şair belə bir nəticəyə gəlir ki:

Çalış həp qalib ol, mərd ol! Bu aydın bir həqiqətdir,
Cahan bir nazənin dilbər ki,
yalnız mərdə qismətdir. (s.99)

Müharibənin səngiməkdənsə getdikcə şiddətlənməsi, hadisələrin qüruba yaxınlaşmaqdansa zenitə qalxması H.Cavidi başqa romantiklərdə, xüsusilə M.Hadidə olduğu kimi sual qarşısında qoyur: Kimdir günahkar - insan, yoxsa varlığı yoxdan yaradan ulu Tanrı?

İrəlidə qeyd olduğu kimi, şərin insanın xislətində olduğunu elan edən H.Cavid qəlbi insana məhəbbət işığı ilə işıqlanmayan "mədəni vəhşiləri", "böyük başları", öz xudbin niyyətlərini həyata keçirmək üçün "məzlumları" qurbanlıq kimi qanlı hərb meydanlarına sürükləyənləri günah sahibi hesab edir.

*(Davamı 7-ci səhifədə)*

# HÜSEYN CAVİDİN ŞEİRLƏRİNDƏ BİRİNCİ DÜNYA MÜHARİBƏSİ MÖVZUSU

*(Əvvəli 6-cı səhifədə)*

Bəşəriyyətin sabahından ötrü narahat olan, "Ruhu diyari - hüznə qoşan, uzaq, çox uzaq bir mühit içində dolaşan" şairin daxili təlatümünü hiss etmək üçün onun 1916-cı ilin dekabr ayında yazdığı "Hərb və fəlakət" şeirindəki aşağıdakı misralara diqqət etmək kifayətdir:

Uçar, uçar, yenə ruhum diyari-hüznə qoşar,
Uzaq, uzaq, çox uzaq bir mühit içində yaşar.
Soyuq, soyuq! Gecə keçmiş, bütün cahan susmuş,
Uzaqda inləyir ancaq zavallı bir bayquş!
Gözümdən uyqu çəkilmiş də çırpınır qəlbim,
Nədənsə bilməyirəm, ah! Xeyli müztəribim.
Önümdə dalğalanır teyflər, qızıl qanlar,
Başımda patlayır atəşli, sisli vulkanlar . (s.71)

Bayquş ulartısı cahanın xarabazara çevrilməkdə olduğuna işarə olduğu kimi, şairin təlatümlü qəlbinin iztirablarından da xəbər verir. Xəyallara qapılmış şair mənəvi müvazinətdən çıxacaq qədər həyacanlanıb. Bu həyacanlı anlarda gözündən yuxu çəkilmiş və müztərib olan sənətkarın önündə teyflər, qızıl qanlar dalğalanır, qarşısında bütün aləm təcəssüm edir və şair görür ki:

Yığın-yığın bəşəriyyət ölümlə pəncələşir,
Fədayi-nəfs edərək haqq üçün qoşar, güləşir.
Yaxar, yıxar, əzilir, məhv olur, basır, basılır,
Vətən yolunda ölür, öldürür, asar, asılır (s.71)

Bu pəncələşmə prosesində hər kəs özünü haqlı bilir və daha çox yıxmağa, məhv etməyə çalışır. Ona elə gəlir ki, ölürsə, vətən yolunda ölür, öldürürsə, vətənin düşmənini öldürür. Görəsən, insan övladı bu anlarda düşünürmü ki, qətlinə fərman verdiyi öz qardaşı, öz həmcinsidir. Bəlkə, ona elə gəlir ki, onun əməlləri sayəsində:

Böyük, kiçik, qara, ağ, həp xristian, islam,
Şəhərli, köylü, maarifpərəst, həp alçaq;
Qəvi zəif ilə bir yerdə kamiran olacaq. (s.72)

Suala şairin özü çox dürüst və konkret bir cavab verir:

Aman, nə dadlı bir əfsanə, həm nə süslü yalan! (s.72)

Belə olan halda:

Nədir bu qəhrü fəlakət? Nədir bu qəhtü qəla?
Nədir bu kinü ədavət, nədir bu dərdü bəla? (s.71)

Bəlkə, bəşəriyyət mədəniləşdikcə, elm inkişaf etdikçə insan vəhşiləşir? Şairin fikrincə, belə deyil, ariflər belə düşünmür. Onların fikrincə, siyasət ərlərinin gur-gur guruldaması və qanlı fırtınalardan səadət ummaları, məzlumu, zəifi saya salmadan ancaq və ancaq öz aqibətlərini düşünmələri bəşəriyyətə fəlakət girdabından çıxmağa imkan vermir. Rəyasət sahibləri aqillərin kəşflərini bəşəriyyətin səadəti, xoş güzəranı istiqamətinə yönəltmək əvəzinə, öz mövqelərini qorumaq və bəşəriyyəti qorxu altında saxlamaq üçün istifadə etmiş, millət və xalq üçün çalışıb yorğun düşən alimi də, digər zəka sahiblərini də qucaq-qucaq dadlı vədlərlə aldatmış və beləliklə, niyyətlərini həyata keçirmişlər.

Hərb illərində yazdığı əsərlərində vətəndaşlarına, arxadaşlarına onların tarixi keçmişini xatırladan və onları tarixin dərslərindən ibrət götürməyə çağıran H.Cavid bu qənayətə gəlir ki, azad, xoşbəxt, məsud olmaq üçün insan özündə təpər tapmalı, ideal uğrunda əzmlə mübarizə aparmalıdır, çünki:

İdealsız nicat ümidi-məhal..
İttihad! İştə ən böyük ideal!
Səni qurtarsa, qurtarar birlik,
Çünki birlikdədir fəqət dirilik! (s.73)

H.Cavidə görə, təklik, arxasızlıq böyük faciədir. Sürüsündən kənar olan qoyunu canavar parçaladığı kimi, qövmündən ayrılan insanı da ondan güclüləri məhv edəcək. Birlik olan yerdə dirilik var və birliyi yaratmaq üçün insan cəhli məhv etməli, təkcə özünü yox, gələcək nəslini də, geniş mənada bəşəriyyəti də düşünməlidir.

Müharibə mövzulu, 17 aprel 1917-ci ildə yazdığı "Hərbi-ilahi qarşısında" şeirində insanlardan bir kömək hiss etməyən H.Cavid hərb Allahına xitab edir. İnsanların bu qanlı hərbi qurtarmamaqda maraqlı olduğunu bildiyindən o, hərb Allahını "odlu şəhpərləri ilə zəhər saçan kinli əjdəha" adlandırır və tələb edir:

Oldunsa bunca qəhrü fəlakətlə şadkam,
Artıq bitir bu səhnəyi, ey müəssir daha!
Endir bu qanlı pərdəni, ey rəhnümayi-şər!
Endir də bir qədər nəfəs alsın bəni-bəşər! (s.100)

Hərb Allahını ittiham edən, təkcə insanların deyil, yerin, göyün, külli-kainatın, hətta vəhşilərin də bu qovğadan bezib bağrı qan olmalarını, qan hərisi qartalların da boğaza yığılıb məskənlərini tərk edərək daha abad yer axtarmalarını xatırladan şair bir qədər sonra hökm edir:

Ey şiddətü sovuran hamiyi-zəfər,
Artıq yetər, usandı cahan, sən də bir usan,
Tərk et bu torpağı, artıq çəkil yetər! (s.100)

Bu didişmədən hamı yorulub və hər kəs indi ruh açan:

Azadə bir havada çiçəklənmək istəyir,
Pək dadlı bir ümidlə əylənmək istəyir. (s.100)

Əgər əvvəlki əsərlərində dünyəvi kədər, bir qədər inamsızlıq ruhu aparıcı idisə, müharibənin dördüncü ilində yazdığı bu şeirdə gələcəyə inam motivləri ön plana keçir. Hərbin yavaş-yavaş səngiməsi şairdə belə bir inam yaradır ki:

Qəsvətli, sisli hər gecədən bir günəş doğar! (s.101)

Romantik xəyalı qanadlanan H.Cavid xəyalən müharibənin sonunu görür və zülmətin dağılmasını, haqq və ədalətin gülümsəməsini bəyan edir. Lakin son misralarda etiraf edir ki, bu xəyaldır, arzudur, çünki:

Hürriyət? Ah, o, məncə, dadlı bir xəyal...
Dünyada varmı hürr əcəba? İştə bir sual! (s.101)

İmkan daxilində nəzərdən keçirdiyimiz lirik şeirlərindən başqa "Müharibə və ədəbiyyat" məqaləsində (1915) və "İblis" (1918) faciəsində də H.Cavid Birinci Dünya müharibəsinin səbəbləri barədə düşünür, onun bəşəriyyətə vurduğu yaraları göstərir və nəticə etibarı ilə belə bir qənaətə gəlir ki, dünyanı qan ocağına çevirən yalnız cəhalət, avamlıq, elmsizlik, mədəniyyətsizlik deyil, həm də XX əsrin görünməmiş dəhşətli ölüm saçan elmi kəşfləri və güclü dövlətlərin dünya ağalığı iddiasıdır.

***2022***

